
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (21.196)

4 mart 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Sloveniya Respublikası Parlamenti Milli Şurasının sədri Mitya Bervarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Milli Şuranın sədri Mitya Bervar Sloveniya Respublikasının Prezidenti Borut Pahorun salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli münasibətlərin səviyyəsinin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi sahədə razılıq doğurduğu bildirildi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. Sloveniya Respublikası Parlamenti Milli Şurasının sədri Mitya Bervarın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı Prezident Borut Pahorun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sloveniya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyasının “ВТБ” Bankının prezidenti və idarə heyətinin sədri Andrey Kostini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Çex Respublikasının Sənaye və Ticarət naziri Yan Mladekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib



*“Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan qadınının cəmiyyətdə roluna böyük əhəmiyyət verib. Dahi şəxsiyyət dünyanın hər yerində bütün görüşlərində qürur hissi ilə qeyd edirdi ki, Azərbaycan qadınları Şərqdə ən yüksək inkişafa nail olub və dünyada qadın azadlıqlarının ilk təmsilçiləridir”.*

Bu fikirlər martın 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində “Heydər Əliyev lektoriyası”nın 64-cü məşğələsində səsləndirilib.

Lektoriyanı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycanda qadınların problemlərinin həllinə böyük diqqət yetirdiyini bildirib.

“Heydər Əliyev və Azərbaycan qadını” mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Zülfiyyə İsmayıl bildirib ki, ümummilli liderimiz respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan qadınlarının əməyini yüksək qiymətləndirib, xüsusilə müstəqillik illərində qadınların hüquqlarının daha da genişlənməsinə, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə xüsusi diqqət yetirib. Məhz dahi rəhbər Heydər Əliyevin tapşırıq və tövsiyələri ilə müstəqillik illərində respublikamız qadınların hüquq və azadlıqlarını təsbit edən mühüm beynəlxalq konvensiyalara qoşulub.

Vurğulanıb ki, hələ XX əsrin 60-cı illərinin sonlarından ölkəmizə rəhbərlik etməyə başlayan ulu öndər Heydər Əliyev qadınların bütün sahələrdə irəli çəkilməsini təmin edib. Həmin dövrdə Ali Sovetin 37 deputatı qadın idi. Müqayisə üçün bildirək ki, o zamanlar Amerikada 12, İngiltərədə 26, Fransada 2, İtaliyada 33, İranda 7 qadın deputat var idi. Avropanın indi problem olaraq gördüyü məsələləri ulu öndər hələ ötən əsrin 70-ci illərində həyata keçirib. Hələ o zamanlar görkəmli dövlət xadimi Heydər Əliyev ali məktəb və texnikumlarda təhsil alan qadınların sayının artırılmasını və onların elmi araşdırmalara cəlb edilməsini vacib məsələ kimi qarşıya qoyub. Məhz dahi şəxsiyyətin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanda qadınlar özlərini həmişə cəmiyyətin bərabərhüquqlu üzvü kimi hiss ediblər.

Lektoriyaya AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

Rauf ƏLİYEV

*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsi tələbələrinin iştirakı ilə “Azərbaycan tarixinin Heydər Əliyev erası” mövzusunda açıq dərs keçilib.*

## Azərbaycan tarixinin Heydər Əliyev erası

Açıq dərsdə Ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar Kəngərlinin mövzu ilə bağlı mühazirəsi dinlənilib. Dərsdə müasir tariximizə adını dahi rəhbər, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu, Azərbaycan diasporunun yaradıcısı, sülhün müdafiəçisi kimi həkk etmiş ümummilli lider Heydər Əliyevin keçdiyi böyük, şərəfli ömür yoluna nəzər salınıb, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri və rolundan bəhs edilib. Bildirilib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan ümummilli lider Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub.

Vurğulanıb ki, müstəqilliyimizin təminatçısı dahi rəhbər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin dönməzliyi və əbədiliyinin təmin olunması uğrunda yorulmaz mübarizəsi, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət qurulması istiqamətində həyata keçirdiyi islahatlar Azərbaycan tarixində Heydər Əliyev erası kimi səciyyələndirilməkdədir. Mühazirəçi bu eranın ayrı-ayrı mərhələləri haqqında açıq dərs iştirakçılarına məlumat verib.

Sonda tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Mina QASIMOVA

## Yeni quruculuq obyektlərində son tamamlama işləri görülür





*Naxçıvan Muxtar Respublikasında yeni infrastruktur obyektlərinin yaradılması istiqamətində işlər davam etdirilir.*

Kəngərli rayonunun mərkəzi olan Qıvraq qəsəbəsi də son illərdə burada yaradılmış müasir obyektləri ilə seçilir. Hazırda qəsəbədə 3 yeni quruculuq ünvanında son tamamlama işləri görülür. Belə ki, digər rayon mərkəzlərində olduğu kimi, dövlət idman və gənclər siyasətinin uğurlu davamı olaraq, 2013-cü ilin noyabr ayından burada şahmat məktəbi üçün yeni binanın tikilməsinə başlanılıb və ötən müddət ərzində işlər yekunlaşdırılıb. Zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan binanın zirzəmi hissəsində qazanxana, bufet və sinif otaqları, birinci mərtəbədə 4 sinif otağı, ikinci mərtəbədə sinif otaqları ilə yanaşı, müəllimlər və kompüter otaqları yerləşəcək. Sonuncu mərtəbə isə oyun zalı və hakim otağı üçün nəzərdə tutulub.

Şahmat məktəbi ilə yanaşı yerləşən digər quruculuq ünvanı isə rayon Təhsil və Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kəngərli Rayon şöbələri üçün tikilmiş yeni inzibati binadır. Bu bina da zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Obyektdə tikinti işlərinə ötən ilin aprel ayından başlanılıb və qısa müddətdə işlər yekunlaşdırılaraq başa çatdırılıb. Bina istifadəyə verildikdən sonra aidiyyəti üzrə burada fəaliyyət göstərən qurumlar üçün hərtərəfli şərait yaradılacaq.

Muxtar respublikada əhalinin fasiləsiz olaraq enerji ilə təmin olunması ən vacib məsələlərdəndir. Buna görə də elektrik şəbəkələrinin fəaliyyəti daim diqqətdə saxlanılır, onlar üçün hərtərəfli şərait yaradılır. Kəngərli Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati binanın tikilməsi də bu qəbildəndir. Digər iki obyektdə olduğu kimi, burada da işlər yekunlaşdırılıb, son tamamlama işləri görülür. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsi anbar, qazanxana, yeməkxana və mərkəzi idarəetmə zalı, ikinci mərtəbə isə iclas zalı, kompüter otağı və digər inzibati otaqlar üçün nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsindən verilən məlumata görə, hər 3 obyektdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilib, aparılan işlərdə keyfiyyət amilinə diqqət yetirilib.

Səbuhi HƏSƏNOV

## Naxçıvanda növbəti açıq ürək əməliyyatları aparılmışdır

*Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili artıq ənənə halını almışdır.*

Bölgədə analoqu olmayan Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qurulmuş müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada mürəkkəb cərrahi əməliyyatların aparılmasına imkan verir. Yüksəkixtisaslı həkim briqadaları yerli həkimlərlə birgə hər il çoxlu sayda göz, TUR, açıq ürək, neyrocərrahi, travmatoloji, uroloji, invaziv yolla ürək əməliyyatlarını uğurla həyata keçirirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin həkim briqadası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə 2014-cü il ərzində 4 dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olmuş, 80 nəfərdə EXO müayinə, 54 nəfərdə angioqrafiya, 43 nəfərdə açıq ürək əməliyyatı, 1 nəfərdə periferik damar əməliyyatı aparmışdır. Yaranmış ənənə cari ildə də davam etdirilir. Yüksəkixtisaslı həkim briqadası yanvar ayında Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 15 müayinə, 7 açıq ürək, fevral ayında isə 10 açıq ürək əməliyyatı aparmışdır.

Heyət bu il martın 1-də üçüncü dəfə Naxçıvana gələrək Diaqnostika-Müalicə Mərkəzində açıq ürək əməliyyatları aparmışdır. Yerli həkimlər tərəfindən müayinə olunaraq qeydiyyata götürülmüş və əməliyyatı planlaşdırılmış xəstələr üzərində 6 açıq ürək-aortakoronar şuntlama əməliyyatı həyata keçirilmişdir. Bundan başqa, anadangəlmə ürək qüsuru olan 2 uşaq üzərində mədəciklər və qulaqcıqlararası defektlər aradan qaldırılmışdır. Kardiocərrahlardan Seymur Musayevin, Fərid Hüseynovun, reanimatoloq-anestezioloq və əməliyyat tibb bacılarının təmsil olunduğu heyət xəstələri müxtəlif kardioloji müayinələrdən keçirmiş, xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırmış, onlara tibbi məsləhət və tövsiyələr vermişdir.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiovaskulyar cərrahı İntiqam Fətullayev, anestezioloq-reanimatoloq Şahin Mazanov, reanimasiya, anesteziologiya və əməliyyat tibb bacıları da yaxından iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti



Jurnalistin qeydləri

# Şərurun yeni həyatı



Diyadin kəndindən görünüş

### Yeniliklər göz oxşayır

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf siyasətinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində 2014-cü il ölkəmizin, eləcə də muxtar respublikamızın tarixində çox mühüm iqtisadi nailiyyətlərlə yadda qaldı. Respublikamızda ardıcıllıqla həyata keçirilən sosial-iqtisadi inkişaf kursu 2014-cü ildə Şərur rayonunda da iqtisadiyyatın bütün sahələrinin inkişafını təmin edərək müsbət sosial-iqtisadi nəticələrin əldə edilməsini şərtləndirib.

Bu gün Şərur gözəldir, səliqə-sahmanlıdır. Naxçıvan-Sədərək magistralından, Düdəngə kəndi istiqamətindən Şərur şəhərinə daxil olarkən ulu öndərin adını daşıyan prospekt başlayır. Prospekt əsaslı şəkildə yenidən qurulub. Yolboyu müasir işıqlandırma sistemi, yeni binalar, müxtəlif obyektlər, səkilər, dekorativ ağaclar yolun hər iki tərəfində diqqəti cəlb edir.

Şəhərin mərkəzinə doğru hərəkət etdikcə hər addımda bir yenilik görürsən. Heydər Parkı Şərur şəhərinin ən gözəl ünvanlarından biridir. Burada gənclərin, şəhər əhalisinin mənalı istirahəti üçün hər cür şərait yaradılıb. Şəhərdəki digər parklar, xiyabanlar, küçələr, yollar da abadlaşdırılıb. Şərur vidalaşdığımız 2014-cü ildə daha da inkişaf edib, gözəlləşib. Şərur şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi, Şərur Rayon Texniki-Peşə və Sürücülük Məktəbi üçün yeni binalar tikilib, şəhərdə əl topu oyunları idman meydançası, "Naxçıvanbank" ASC Şərur rayon filialının, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin və rayon Məşğulluq Mərkəzinin yerləşdiyi inzibati binalar və üç yaşayış binası əsaslı təmir olunub. Tikinti-quruculuq işləri bununla məhdudlaşmır. Dizə, Püsyan kəndlərində kənd mərkəzləri, həkim ambulatoriyaları, xidmət mərkəzləri inşa olunub, məktəb binaları yenidən qurulub. Diyadin kəndində kənd mərkəzi, məktəb binası, xidmət mərkəzi tikilib, Axura kəndində həkim ambulatoriyası, məktəb binası, kənd mərkəzi əsaslı təmir edilib. Sosial qayğıya ehtiyacı olan ailələr üçün Çomaxtur kəndində iki, Axura kəndində isə bir yaşayış evi inşa olunub.

2014-cü ildə "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları işə salınıb, Çomaxtur kəndində meyvə-tərəvəzin qurudulması sahəsi, Şərur şəhərində, Mahmudkənd, Muğanlı və Kərimbəyli kəndlərinin hər birində bir quşçuluq təsərrüfatı, Qarxun kəndində istixana kompleksi, Zeyvə kəndində qarışıq qüvvəli yem istehsalı sahəsi, Diyadin, Dizə, Axura, Danyeri və Çərçiboğan kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatları yaradılıb.

Bundan başqa, Axura, Püsyan, Dizə kəndlərində avtomobil yollarına asfalt örtüyün salınması, Püsyan-Xanlıqlar avtomobil yolunun genişləndirilməsi başa çatdırılıb. Hazırda Cəlilkənddə Cəlil Məmmədquluzadənin xatirə muzeyinin tikintisi, tarixi Buxxana abidəsinin bərpası, məktəb binasının, mədəniyyət evinin, xidmət mərkəzinin, həkim ambulatoriyasının, kənd mərkəzinin yenidən qurulması, məscidin təmiri, rayonda "N" hərbi hissəsi üçün infrastruktur obyektlərinin, Şərur şəhərində aviakassa binasının tikintisi, rayonda içməli su və kanalizasiya xətlərinin çəkilişi, Araz çayı boyunca sahilbərkitmə işləri, Aralıq kəndində un dəyirmanının inşası, Dəmirçi kəndində içməli su xəttinin çəkilişi və digər quruculuq tədbirləri davam etdirilir. Həyata keçirilən bütün layihələr bir məqsədə xidmət edir: şərurluların yaşayış səviyyəsini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, bölgənin, muxtar respublikanın və nəticə etibarilə, ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.



Şərur Texniki-Peşə və Sürücülük Məktəb kompleksi

### İqtisadiyyat güclənir, güzəran yaxşılaşır

Rayonda bütün sahələrdə yüksəliş, tərəqqi var. 2014-cü ilin uğurları da göz qabağındadır.

Sənayenin inkişafı baxımından 2014-cü il rayon üçün əlamətdar olub. Ötən il rayon üzrə 85 milyon 827,5 min manatlıq, yaxud 2013-cü illə müqayisədə 1,9 faiz çox sənaye məhsulu istehsal edilib.

Kənd təsərrüfatı aparıcı sahə kimi Şərur iqtisadiyyatının əsasını təşkil edir. 2014-cü ildə rayon üzrə 113 milyon 34,8 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2013-cü ilin göstəricisini 6 faiz üstələyib.

Keçən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 72 milyon 605,4 min manat investisiya yönəldilib, tikinti-quraşdırma işlərinin həcmi 67 milyon 241,1 min manat təşkil edib.

2014-cü ildə 825 iş yeri açılıb; onun 812-si daimi iş yerləridir. Ümumiyyətlə, 2009-cu ildən bəri rayon üzrə 3387 iş yeri yaradılıb.

Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının həcmi 4 faiz artaraq 372,7 manat olub.

### Aqrar sahə: yüksək zirvələrə doğru

Şərur kənd təsərrüfatı rayonudur. Təsadüfi deyil ki, iqtisadiyyatın əsasını təşkil edən aqrar sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Ötən il 9 min 184,1 hektar sahədə taxıl əkilib-becərilib. Çəkilən zəhmət, alın təri, təbii ki, hədər getmədi. Səxavətli torpaq sinəsinə səpilən toxumu birə-min edib əkinçiyə qaytardı. Taxıl zəmilərindən 22 min 761 tonu buğda, 5 min 488 tonu arpa olmaqla, 28 min 249 ton məhsul götürüldü. Məhsuldarlıq orta hesabla 30,8 sentner təşkil etdi ki, bu da yüksək göstəricidir. Bu nəticələrə nail olunmasında taxılçılara dövlət yardımlarının edilməsi mühüm rol oynayır. 2014-cü ildə torpaq mülkiyyətçilərinə buğda istehsalının stimullaşdırılması məqsədilə 297 min manat məbləğində pul, 1049 ton pulsuz mineral gübrə verilib. Taxılçılar 2015-ci ilin bol məhsulunun əsasını qoymaq üçün ötən ilin payızında 7 min 429 hektar sahədə taxıl əkini keçiriblər. Səpin zamanı şırım üsuluna üstünlük verilib.

489 hektar paxlalı sahələrindən 1540 ton məhsul götürülüb, tərəvəzçilikdə məhsuldarlıq 115,8 sentner olub. Belə ki, torpaq mülkiyyətçiləri tərəvəz üçün ayırdıqları 1569 hektar sahədən 19 min 597 ton məhsul tədarük ediblər. Kartofçuluqda məhsuldarlıq 133 sentnerə çatdırılaraq 752 hektardan 10 min 2 ton məhsul yığılıb. Bostan məhsulları istehsalında da göstərici yüksək olub: 471 hektar sahədə 5 min 266 ton məhsul yetişdirilib. Şərur həm də dadlı meyvə və üzüm məhsulları istehsal edən bölgədir. Ötən il bağlardan 16 min 218 ton meyvə, 1318 ton üzüm dərilib.

### Əhaliyə xidmətin səviyyəsi necədir?

Şərur rayonunda əhalinin elektrik enerjisi, qaz və su təminatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Rayon əhalisinin, eləcə də sosial obyektlərin enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Belə ki, enerji itkisinin qarşısının alınması məqsədilə bölgədə müxtəlif gücə malik 8 yeni transformator yarımstansiyası quraşdırılıb, 76 transformator əsaslı, 220 transformator cari təmir olunub.

Yaşayış yerlərinin qazlaşdırılması, əhalinin təbii qaza olan ehtiyacının davamlı və keyfiyyətli şəkildə ödənilməsi dövlət tərəfindən qarşıya qoyulan prioritet məsələlərdəndir. Bununla əlaqədar rayonda keçən il 16 min 851 paqonometr yeni qaz xətti çəkilib, 11 min 894 paqonometr qaz xəttinin yeri dəyişdirilib, 279 abonentə yeni qaz xətti çəkilib. Rayonun bütün yaşayış məntəqələri təbii qazdan istifadə edir və abonentlərin sayı 17 mini ötüb.

Əhalinin içməli su ilə təmin olunması qayğısına da qalınıb, nasos stansiyalarının, subartezianların istismarına ciddi nəzarət olunur. Aralıq kəndində həcmi 4 min kubmetr su tutan 2 anbar fəaliyyət göstərir və bu anbarlar rayonun 17 kəndinin əhalisini içməli su ilə təmin edir.

Rabitə xidmətinin yaxşılaşdırılması sahəsində də müəyyən işlər görülüb. Kürkənddə 384, Cəlilkənddə 160, Diyadində 96, Dizədə 208 nömrə tutumlu "Karel DS 200" tipli yeni avtomat telefon stansiyaları quraşdırılıb, Alışarda 448, Püsyanda 512 nömrə tutumlu ATS-lər yeni inşa olunmuş binalara köçürülüb. Rabitə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar 62 min 900 metr yerüstü, 10 min 219 metr yeraltı kabel xətləri, 400 metr yerüstü, 26 min 456 metr yeraltı fiber-optik xətlər çəkilib. İl ərzində 1096 abonentə yeni telefon xətti çəkilib, beləliklə, ümumi abonentlərin sayı 11 min 335-ə çatıb.



Axura kənd tam orta məktəbi

### Təhsil, səhiyyə, mədəniyyət, gənclər siyasəti

Son illər ərzində Şərurda məktəb tikintisi, təhsil müəssisələrinin əsaslı təmiri, maddi bazanın möhkəmləndirilməsi, yeni texnologiyaların tətbiqi, təhsilin dünya standartlarına uyğunlaşdırılması, məzunların ali məktəblərə qəbulu sahəsində əsaslı nailiyyətlər əldə edilib. Rayon məzunlarının ali məktəblərə qəbul zamanı qazandığı nəticələr də yüksəkdir. Belə ki, sonuncu imtahanlarda 336 məzun ali məktəblərə qəbul olunub, onlardan 16 nəfəri 600-dən yuxarı, 29 nəfəri isə 500-600 arasında bal toplayıb. Rayon üzrə orta məktəbi 3 nəfər qızıl, 2 nəfər isə gümüş medalla bitirib. 2013-2014-cü tədris ilində IX sinif bazasından 54 nəfər Heydər Əliyev adına Hərbi Liseyə qəbul edilib. Rayon müəllimlərindən bir nəfəri 2013-2014-cü dərs ilinin "Ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub.

Rayonda prioritet istiqamətlərdən birini də bölgənin səhiyyə infrastrukturunun inkişafı, əhalinin sağlamlığının mühafizəsi, sakinlərə tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, müalicə-profilaktika işlərinin təkmilləşdirilməsi, yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması, sanitar-epidemioloji sabitliyin təmin olunması təşkil edir. Bu gün Şərurda Mərkəzi Xəstəxana, 1 kənd sahə xəstəxanası, 28 həkim ambulatoriyası və 33 feldşer-mama məntəqəsi əhalinin sağlamlığı keşiyindədir.

Sakinlərin asudə vaxtının, əhalinin mədəni-kütləvi istirahətinin səmərəli təşkili məqsədilə rayon mədəniyyət sarayı, 26 kənd mədəniyyət evi, 1 şəhər klubu, "Bahar" kinoteatrı, 40 kənd klubu, rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 1 uşaq kitabxanası, 59 kənd kitabxana filialı, Şərur Şəhər İncəsənət və bədii sənətkarlıq məktəbi, 5 uşaq musiqi məktəbi, Tarix-Diyarşünaslıq Muzeyi, Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi, "Şərur" xalq yallı ansamblı, xalq teatrı, "Arpaçay" instrumental ansamblı, "Şərur qönçələri" uşaq yallı ansamblı bütün imkanları səfərbərliyə almaq, maraqlı və yaddaqalan mədəni-kütləvi tədbirlər həyata keçiriblər.

Dövlət gənclər siyasətinin həyata keçirilməsi, yeniyetmə və gənclərlə işin təkmilləşdirilməsi və müasir tələblərə uyğun qurulması diqqət mərkəzində saxlanılır. Odur ki, Şərur gəncləri siyasi fəallıqları, əzmkarlıqları ilə muxtar respublikada seçilirlər. Bu gün rayonun ictimai-siyasi, iqtisadi-sosial həyatında əldə edilmiş parlaq və dinamik inkişafda gənclərin də həlledici rolu vardır. Yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi üçün müntəzəm olaraq "Şahin" və "Cəsurlar" hərbi-idman oyunları, "Vətənin müdafiəsinə hazıram" çoxnövçülük yarışları təşkil olunub. Rayon gənclərinin müxtəlifsəviyyəli idman yarışlarında iştirakı təmin edilib və bir sıra nailiyyətlər qazanılıb. Belə ki, ötən il aprel ayının 13-dən 17-dək 2 yaş qrupu üzrə yeniyetmə futbolçuların muxtar respublika birinciliyi keçirilib. Yarışda hər iki yaş qrupunda yeniyetmə futbolçular Şəruru təmsil edib, 1997-ci il təvəllüdlü komanda I, 1998-ci il təvəllüdlü komanda isə II yeri tutub. Rayonun idmançıları muxtar respublika hüdudlarından kənarda keçirilən yarışlarda da iştirak edirlər. Keçən il Azərbaycan Respublikası məktəblilərinin futbol yarışında Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandası II yerə layiq görülüb. Noyabr ayında Balakən şəhərində keçirilən yeniyetmələr arasında boks üzrə birincilikdə Şərur komandası 3 nəfərlə təmsil olunub, onlardan 1 idmançı üçüncü yerin sahibi olub.

### Qarşıda daha mühüm vəzifələr durur

2014-cü ilin təhlili göstərir ki, Şərur rayonunda iqtisadiyyatın davamlı inkişafı təmin edilib, abadlıq-quruculuq işləri geniş miqyasda həyata keçirilib, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində uğurlu nəticələr əldə olunub. Muxtar respublikanın inkişaf dinamikasına uyğun olaraq, Şərurun siması büsbütün dəyişib. Rayonun hər bir sakini qazanılan uğurların bəhrəsini öz gündəlik həyatında aydın şəkildə hiss edir.

***Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən fermerlər, torpaq mülkiyyətçiləri, emal müəssisələri bu il daha yüksək nəticələr əldə etmək üçün indidən səylə çalışırlar. Həmçinin tikinti-quruculuq, abadlıq sahəsindəki işləri davam etdirmək, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasına, elektrik və qaz təsərrüfatlarının, yol infrastrukturunun yenidən qurulmasına və digər məsələlərin həllinə nail olmaq 2015-ci ilin – "Kənd təsərrüfatı ili"nin başlıca fəaliyyət proqramıdır. Rayon sakinləri əməksevərdilər. Buna görə də qarşıda duran vəzifələrin yerinə yetiriləcəyi heç kəsdə şübhə doğurmur.***

Cəfər ƏLİYEV

Yeni nəşrlər

# Görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim Nəriman Nərimanov haqqında sənədli dastan

***Bu günlərdə kitabxanaların birində rusiyalı qafqazşünas-alim Rudolf Nikolayeviç İvanovun Nəriman Nərimanov haqqında yazdığı və yenicə nəşr edilmiş kitabına rast gəldim. Arxiv materialları əsasında yazılmış bu maraqlı epopeya haqqında danışmazdan əvvəl qeyd edək ki, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi Naxçıvanın tarixi XVIII əsrin sonlarından başlayaraq rusiyalı qafqazşünasların və tarixçilərin maraq dairəsində olmuşdur. Onların çoxu Naxçıvanda olmuş və maraqlı əsərlər yazmışlar. Bir sıra ziddiyyətli fikirlərə baxmayaraq, bu əsərlər bu gün də aktuallığı ilə seçilir.***




Sonralar sovet tarixçiləri də tarixi ənənəni davam etdirmişlər. O cümlədən Kommunist Partiyasının və sovet dövlətinin əsas rəhbərlərindən biri olan Nəriman Nəcəf oğlu Nərimanov haqqında da kitablar yazılmışdır. Onun haqqında yazanlara nümunə kimi V.Məmmədovun, F.Köçərlinin, T.Əhmədovun, F.Bayramovun, İ.Dubinski-Muxadzenin, M.Qazıyevin, M.Rəfilinin, C.Quliyevin, V.Ağasıyevin və H.Z.Əliyevin adlarını çəkmək olar. Onun haqqında kitablar 1956-cı ildən sonra yazılmağa başlanmışdır. Bunlardan aydın olur ki, "İ.V.Stalin epoxası" dövründə N.Nərimanov haqqında ətraflı yazmaq qadağan olunmuşdu.

Amma böyük dövlət xadimi və vətənpərvər ziyalı Nəriman Nərimanov haqqında əhatəli tədqiqat əsərləri 1969-cu ildən sonra – ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyə başlayandan sonra yazılmışdır.

Azərbaycan 1991-ci ildə yenidən müstəqilliyini bərpa etdikdən sonra rusiyalı tarixçilər və qafqazşünaslar əvvəlki ənənəni yenə də davam etdirmişlər. Onlardan Rudolf İvanov və Oleq Kuznetsov azərbaycanlı oxuculara yaxşı tanışdırlar.

R.İvanov Azərbaycan tarixinə aid maraqlı kitablar yazmışdır. Onun yeni nəşr etdirdiyi kitab "Ölümsüz döyüş" adlanır. 525 səhifədən, 182 illüstrasiyadan və 6 fəsildən ibarət olan kitaba 475 tarixi material daxil edilmişdir. Onların yarısından çoxu müəllif tərəfindən aşkar olunmuşdur.

Kitaba "Ön söz"ü akademik İsa Həbibbəyli yazmışdır. Nəriman Nərimanov haqqında aparılan axtarışlar, onun fəaliyyəti və qəfil ölümünün səbəbləri, eləcə də digər məsələlər R.İvanovun sənədli epopeyasında dolğun əksini tapmışdır.

Birinci fəsildə ("Nəriman Nərimanov Azərbaycan və SSRİ üçün kim olub?") müəllif Nəriman Nərimanovun şəcərəsi haqqında bəzi qeydlər verməklə onun təhsil illərindən, müəllimlik fəaliyyətindən, ədəbi əsərlərindən və Rusiyada tibbi təhsil almasından söhbət açır.

Maraq üçün deyək ki, Nəriman Nərimanovu Naxçıvanla da qohumluq telləri bağlayır. Onun xalası Zəhra banu xanım naxçıvanlı həkim Sultanovun anası olub.

Müəllif özünəməxsus təhkiyə üsulu ilə Nəriman Nərimanovun ailəsi, onun Moskvaya Kremlə dəvət olunması, V.Leninlə dostluğundan və Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından söhbət açır. O, erməni bolşeviklərin Nəriman Nərimanova maneçilik etmələrini, hər vəchlə onu hakimiyyətdən uzaqlaşdırmaq cəhdlərini və xəyanətlərini sənədlər əsasında oxucuya təqdim edir.

Müəllif bu fəsildə Nəriman Nərimanovun Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi qalması uğrunda apardığı mübarizədən də ətraflı söhbət açır. R.İvanov göstərir ki, Nəriman Nərimanov Qarabağ məsələsində "Stalin-Serqo Orconikidze-Mikoyan" qruplaşmasına qalib gəlir.

İkinci fəsildə ("Mərkəzi Komitəyə – yoldaş Stalinə. Surəti Troitski və Radek yoldaşlara Nəriman Nərimanov. "Bizin inqilabın ucqarlarda tarixindən") Nəriman Nərimanovun məruzəsi maraq doğurur. Bu məruzədə Nəriman Nərimanov iki məsələni (birinci, Şərq məsələsi, ikinci, Azərbaycanda vəziyyət) ətraflı izah edir. Müəllif oxucunun diqqətini daha çox "Mikoyan-Sərkis-Mirzoyan" qruplaşmasına yönəldir. Tarixi sənədlər əsasında onların və onlarla dostluq edənlərin iç üzünü açır. Nəriman Nərimanovun özü həmin şəxslər haqqında belə yazıb: "Mikoyanın, Sərkisin və Mirzoyanın siyasətini Azərbaycan üçün ziyanlı hesab etmişəm və edirəm, belə ki, onlar Azərbaycanı simasızlaşdırmaq istəyirlər".

Üçüncü fəsil "Divantutma, qisas" adlanır. Burada Azərbaycan SSR-in qəzalarında 28 aprel və 1 mayın bayram edilməsindən danışılır. Əsərdəki protokolların üzərində yazılıb: "tamamilə məxfidir", "qriflidir".

Bu fəsildə Nəriman Nərimanovun "Mikoyan-Sərkis-Mirzoyan" üçlük qruplaşmasına qarşı apardığı mübarizədə onun çox qətiyyətli olması oxucuda böyük təəssürat yaradır. Ermənilərin və ermənipərəst qüvvələrin siyasi intriqalarına, böhtanlarına ləyaqətlə cavab verən, amansız mübarizə aparan və axırda da qalib gələn Nəriman Nərimanov bütün yüzilliklərdə Azərbaycan tarixində yaşaya biləcək bir şəxsiyyətdir.

Dördüncü fəsildə ("Nəriman Nərimanovun ömür yolundan 15 ay") müəllif V.İ.Leninin ölümündən sonra N.Nərimanovun gördüyü işləri sənədlər əsasında nəql etməklə, onun "Lenin və Şərq" məqaləsini oxuculara təqdim edir. Nəriman Nərimanovun bu tarixi məqaləsi nadir əsərlərdən sayıla bilər.

Müəllif qeyd edir ki, N.Nərimanov V.İ.Leninin vəfatının ildönümündə yenə ona məqalə ithaf edir: "Leninsiz iş illəri". Bu, onun mətbuatda son çıxışı olur.

Bu fəsildə müəllif yenidən N.Nərimanovun oğlu Nəcəfi xatırladır və atasının 28 yanvar 1925-ci ildən başlayaraq ona yazdığı, bitirə bilmədiyi məktubundan söhbət açır və məktubla oxucuları tanış edir.

N.Nərimanov bir ata kimi oğlu Nəcəfi çox sevirdi və onun işıqlı gələcəyinə inanırdı. 2 dekabr 1919-cu ildə doğulan Nəcəf atasını itirəndə 5 yaşında idi. Alman, ingilis, fars, ərəb, türk və rus dillərini sərbəst bilən Nəcəf 1938-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) tank-texniki məktəbinə daxil olur. 1939-cu ildə onu Kiyevdəki məktəbə dəyişirlər. 1940-cı ilin oktyabrında o, məktəbi qurtarır və 15-ci tank diviziyasının 29-cu tank polkunda texnik kimi işə başlayır. Sonralar İkinci Dünya müharibəsində qəhrəmancasına döyüşən Nəcəf 10 sentyabr 1943-cü ildə, 23 yaşında həlak olur. Onun məzarı Ukraynanın Donetsk Vilayətinin Volnovaxa şəhərinin mərkəzindədir.

Müəllif qeyd edir ki, Nəcəf ölümündən sonra Böyük Vətən müharibəsinin I dərəcəli ulduzu ilə də təltif edilib. Həyatdan nakam köçən Nəcəf atasına layiq bir ad qoyub getmişdir.

Beşinci fəsildə ("Böyük vətəndaşın vəfatı") N.Nərimanovun vəfatından, dəfnindən və bununla bağlı digər məsələlərdən söhbət açan müəllif arxivlərdən aşkar etdiyi yeni sənədlər əsasında onun qəfil ölümünün səbəblərini də açıb göstərir.

Qeyd edək ki, 1925-ci il martın 19-da N.Nərimanov qəflətən vəfat edir. Rusiya Kommunist Bolşevik Partiyasının adından onun tabutu üzərinə qoyulan əklildə yazılmışdı: "Şərq xalqlarının inqilabi rəhbərinə və imperializm zülmü altında olanların tam azadlığı uğrunda çarpışmış mübarizə". Onun vəfatı ilə əlaqədar olaraq ölkənin bütün dövlət idarələrində iş dayandırılmışdı. Martın 23-ü – dəfn günü həm də matəm günü elan edilmişdir. Həmin gün SSRİ-nin hökumət binalarında, SSRİ-nin xaricdəki diplomatik və ticarət nümayəndəliklərinin binalarında, hərbi və ticarət donanmasının gəmilərində dövlət bayraqları beş dəqiqəliyə endirilmişdir. Moskva vaxtı ilə saat 13[00]-də Qızıl Ordunun bütün qarnizonlarında toplardan yaylım atəşi açılmışdır. Qızıl Meydanda Kreml divarı yanında dəfn edilən N.Nərimanovun matəm mitinqində M.İ.Kalininin dedikləri də bu ölümün "sui-qəsd" olduğunu təsdiqləyir: "N.Nərimanov yoldaşın şəxsində biz öz doğma partiyamızın sıralarındakı bir yoldaşımızı və dostumuzu dəfn edirik. Onun şəxsində Qızıl Meydan Şərq xalqlarından birinci qurbanı öz ağuşuna alır".

Fikrimizcə, o, N.Nərimanovu əbəs yerə "qurban" adlandırmırdı.

Nəhayət, altıncı fəsildə ("Nəriman Nərimanovun ikinci zühuru, yaxud Azərbaycanın ümummilli lideri Heydər Əliyev tarixdə kölgə salınmış N.Nərimanovu yenidən dirçəldir") ümummilli liderimiz Heydər Əliyevin Nəriman Nərimanovun adına göstərdiyi ehtiramından söhbət açan müəllif 102 il və 2 aydan sonra keçirilən yubiley təntənələrindən, V.İ.Leninin vətəni Ulyanovsk şəhərində N.Nərimanova qoyulan abidədən danışır.

Nəticədə, müəllif "küldən yenidən doğulmuş" Nəriman Nərimanovun həyatının xalqdan gizli saxlanan mətləblərinə aydınlıq gətirir. Müəllifin ümummilli liderimiz Heydər Əliyevin Nəriman Nərimanovla bağlı müsahibəsini ("Olub-keçənləri düşünərkən", "Ulduz" jurnalı, 1990, № 6, s.78) oxuculara təqdim etməsi lap yerindədir. Artıq oxucu əsl həqiqəti öyrənir.

Nəhayət, əsərin sonunda müəllif Azərbaycan Kommunist Bolşeviklər Partiyasının Bakı Komitəsinin və Qazaxıstanın baş tiranı Levon Mirzoyanın (bu, həmin L.Mirzoyandır ki, Azərbaycan türklərinin qəti düşməni kimi N.Nərimanova dinclik verməmişdir) faciəli aqibətindən söz açır. Sənədli epopeyada "Nəriman Nərimanovun həyatının və fəaliyyətinin vacib tarixləri" və "Adlar göstəricisi" bəhsi vardır.

Rudolf İvanovun sənədli epopeyası Azərbaycan-Rusiya münasibətlərində yeni bir dostluq abidəsidir.

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

---

*Bu günlərdə Fransanın paytaxtı Paris şəhərində "Kampus Frans" Agentliyinin təşkilatçılığı ilə "Azərbaycan günü" tədbirləri keçirilib.*

# Fransa ali məktəbləri ilə əməkdaşlıq genişlənir

Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndələri, 10-a yaxın aparıcı universitet rəhbərləri ilə birgə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov da tədbirlərdə iştirak edib. Tədbirin əsas məqsədi Azərbaycan və Fransa ali təhsil müəssisələri arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, tələbə və müəllim mübadiləsi, birgə proqramların həyata keçirilməsi imkanlarını dəyərləndirmək olub.

Səfər çərçivəsində Fransanın ali məktəblərində də olan nümayəndə heyəti əməkdaşlıq imkanlarını geniş müzakirə edib. Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bizimlə söhbətində bildirdi ki, Naxçıvan Dövlət Universiteti, burada tələbələrin təhsili, mütəxəssis hazırlığı, mövcud ixtisaslar, tədris prosesindəki son yeniliklər, müxtəlif beynəlxalq layihələrdə təmsil olunmağımızla bağlı faktlar Fransadakı ali təhsil müəssisələri rəhbərlərinin maraq dairəsində idi. Tələbə mobilliyi və ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə keçirilən universitetlərarası fərdi görüşlərdə İSAE SUPAERO (özündə bir sıra universitet, məktəb və treyninq kurslarını cəmləşdirən qurum), Loren, Strasburq, EPİTA, Roun universitetləri də daxil olmaqla, Fransanın 10 ali məktəbi tələbə mobilliyi ilə bağlı Naxçıvan Dövlət Universitetinə müraciət etdilər. "Fransanın ali məktəbləri ilə davamlı əməkdaşlığa, naxçıvanlı tələbələrin tələbə mobilliyi əsasında təhsillərini orada davam etdirmələrinə biz də maraqlıyıq", – deyən rektor əlavə etdi ki, tədbir çərçivəsində Pyer və Mari Küri Universitetində də olduq. Görüş zamanı nümayəndə heyətimizə universitetin professor-müəllim heyəti, tələbə kontingenti, 100-ə qədər istiqamət üzrə elmi tədqiqatların aparılması barədə məlumat verildi. Universitetin nəzdindəki İntellektual Sistemlər və Robot Texnikası İnstitutunda aparılan elmi araşdırmalar, robot texnikası ilə tanışlıq zamanı bildirdilər ki, burada yaradılan robot texnikası nümunələrinə sənaye, tibb və farmokologiya kimi sahələrdə böyük tələbat var. Yalnız Fransanın deyil, Avropa miqyasında müxtəlif şirkətlər universitetlə əməkdaşlıq edirlər. Rektorun sözlərinə görə, Fransada keçirilən "Azərbaycan günü" tədbirləri universitetlərarası tərəfdaşlığın inkişafında, Azərbaycan ali təhsil müəssisələrinin Avropaya inteqrasiyasında əhəmiyyətli rol oynayacaq.

**Mehriban SULTAN**

---

# "Naxçıvan" Universitetinin əməkdaşları ECDL layihələrində iştirak ediblər

*"Naxçıvan" Universitetinin administrativ heyəti ECDL (European computer driving licence – Avropa kompüter hüququ) təlimlərində iştirak ediblər. Təlimlər interaktiv qaydada və fərdi yanaşma ilə praktik məşğələlərlə keçirilib.*

İki həftə davam edən təlimlərdə ECDL tədris proqramının "Kompüterin əsasları" və "Onlayn biliklər" modulları tədris olunub.

Qeyd edək ki, Avropa və ABŞ-da standart kimi qəbul olunan ECDL sertifikatı onu alan şəxsin informasiya texnologiyalarının əsas konsepsiyaları ilə tanış olduğunu, kompüterdən və əsas tətbiqi proqramlardan istifadə edə bildiyini təsdiq edir. ECDL sertifikatlaşması istifadə olunan proqram təminatının növündən asılı deyil. Başqa sözlə, bu sertifikatlaşma zamanı testlərə cavab vermək üçün istər Mikrosoft proqram məhsullarından (Windows 7, 8; Office 2007, 2010), istərsə də "açıq mətnli" – "open source" tətbiqi proqramlarından (Linux, Open/Star Office) istifadə etmək olar.

ECDL sertifikatlaşması test mərkəzlərində aparılır. Bu test mərkəzlərindən biri də "Naxçıvan" Universitetində yerləşir. Universitet 2012-ci ildən TEMPUS proqramı çərçivəsində ENOTES-ECDL Azərbaycan Milli Təlim və Test Mərkəzləri layihəsində tərəfdaş universitet statusu alıb. Layihə çərçivəsində universitetin müəllim və tələbələrinin pulsuz ECDL təlimlərində iştirakı nəzərdə tutulub.

Test mərkəzləri test imtahanlarını keçirərək beynəlxalq sertifikatlar vermək səlahiyyətinə malikdir. Bir çox ölkələrdə dövlət qulluğuna işə qəbul zamanı ECDL sertifikatının olması məcburidir. Beynəlxalq qurumlar da ECDL sertifikatlarına xüsusi əhəmiyyət verirlər.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

---

# Tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılmasının ilk kursu başa çatıb

Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçiləri həm obliqat, həm də risk qrupuna (xüsusilə ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələrinin işçiləri) daxil olduqları üçün onların hepatit B virusuna yoluxma ehtimalı daha çoxdur. Odur ki, bu təhlükəli virus infeksiyası ilə qarşılaşmamaq üçün tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılması məqsədilə bu il fevralın 1-dən başlayaraq onların hepatit B vaksini ilə immunlaşdırılması işi həyata keçirilib. Hepatit B vaksininin vurulması üçün rayon mərkəzi xəstəxanalarında üç, Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının dörd orta tibb işçisindən (vaksinator daxil olmaqla) ibarət briqada yaradılıb. Aksiya həm rayon mərkəzi xəstəxanalarının, həm də Naxçıvan şəhərindəki tibb müəssisələrinin işçilərini əhatə edib.

Dünən başa çatan birinci turda 1165 tibb işçisinə hepatit B vaksini vurulub. Bu aksiya Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Diaqnostika-Müalicə Mərkəzində, Psixi Xəstəliklər Dispanserində, Kardioloji Mərkəzdə yüksək səviyyədə təşkil olunub. Naxçıvan şəhərində yerləşən tibb müəssisələrində hepatit B vaksinin vurulması üçün şəhər poliklinikasının orta tibb işçilərindən ibarət yaradılmış briqada üzərinə düşən işi qüsursuz yerinə yetirib.

Üç turdan ibarət olan vaksin kursunun ikinci turu mart ayında, üçüncü tur isə ikincidən 6 ay sonrakı müddətdə aparılacaqdır.

Muxtar respublikada ilk dəfə belə aksiya 2007-ci ildə, ikinci dəfə isə 2012-ci ildə Naxçıvan şəhərindəki cərrahi, ginekoloji və stomatoloji xidmətlə məşğul olan tibb müəssisələrində həyata keçirilib. Həmin müddətdə cərrahların, ginekoloqların, stomatoloqların və digər tibb işçilərinin böyük bir qrupu hepatit B vaksini ilə peyvəndə cəlb olunmuşdur. 2007-ci ildə peyvənd alan tibb işçilərinin hamısı 2012-ci ildə revaksinasiya edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Uzun illərdir, gəzib dolaşırıq ulu türk yurdu Naxçıvanı, tarixən ona bağlı olan bölgələri. Beləliklə, bu yurdun qədim yaşayış məskənləri, adəti, inamlar sistemi, əhalinin məşğuliyyəti, ümumiyyətlə, maddi və mənəvi mədəniyyətinin müxtəlif sahələrinə aid zəngin material toplamışıq. Araşdırmaların əsas istiqaməti ailə məişəti, qədim inamlar sistemi, etnik kimlik məsələləri olsa da, ara-sıra ənənəvi tərbiyə, milli uşaq oyunları, xalq pedaqogikasına aid məqalələr də nəşr etdirdik.O dövrdə uşaqların fiziki və zehni tərbiyəsi, milli uşaq oyunları ilə əlaqəli keçirilən bir sıra ümumittifaq konfranslarda məruzələrlə çıxışlar etmişdik.***

# Milli uşaq oyunlarının fiziki və mənəvi tərbiyədə rolu

1985-ci ildə Moskvada milli uşaq oyunları ilə əlaqəli "İqrı narodov SSSR" adlı kitab yüksək tirajla nəşr edildi və Moskva şəhərində keçirilən beynəlxalq kitab yarmarkasında gümüş mükafata layiq görüldü. Kitabda bizim də məqaləmiz nəşr olunmuşdu. Bütün bunların nəticəsində mən 1986-cı ildə SSRİ Pedaqoji Elmlər Akademiyası Tərbiyənin Ümumi Problemləri İnstitutunda Xalq Oyunları Şurasının, 1992-ci ildə isə Rusiya Xalq Pedaqogikası Assosiasiyasının üzvü seçildim. Bunlar keçici və keçmişdə qalan idi. Ən başlıcası isə zaman keçdikcə əlimizdə etnoqrafiya elminin müxtəlif sahələrinə aid zəngin materiallar toplandı ki, onun müəyyən hissəsindən müxtəlif kitab və məqalələrin yazılmasında istifadə etsək də, çoxu "xammal" olaraq qalır. İndi çöl dəftərlərini vərəqlədikcə görürəm ki, yazılması nəzərdə tutulan, müəyyən hissəsi işlənib yarımçıq qalmış, özgə sözlə desək, ipə-sapa düzülməmiş nə qədər yazılar var. Hərdən düşünürəm, nə qədər ki, ömür aman verib, onları işləyib nəşr etdirməliyəm. Bu yazıda milli-mənəvi dəyərlərimizdə xüsusi yer tutan, uşaqların ənənəvi tərbiyəsində, fiziki inkişafında ciddi rol oynayan, yaşlı nəslin yaddaşını təzələyən bir məsələdən – oyun və əyləncələrin keçirildiyi meydandan bəhs etmək niyyətindəyik.

Ulu Daş çağından başlanır türk yurdu Naxçıvanın nağılı, söyləntisi, hələ qələmə alınmamış çox sayda rəvayətləri. Bu yurdda hər şey meydandan keçərdi – söz meydanı, hünər meydanı... Nə qədər meydan var idi? Bu yurdun özü bir meydan idi. Bütün məsələlər bu meydanlarda həll edilərdi, kənardan gətirilən meyvə-tərəvəz, digər mallar da meydanlarda satılardı. Böyük kəndlərdə hər məhəllənin öz meydanı vardı. Bir baş meydan da var idi – kənd meydanı. Bəzən məhəllənin və ya məscidin adı ilə tanınardı bu meydanlar. Meydanın özünəməxsus qanunu mövcud idi. Ora daha çox yaşlılar, müxtəlif oyunlar oynayan uşaqlar toplaşardılar. Onların ən sıx vaxtı çöl-tarla işləri azalanda idi. Elə ki təsərrüfat işləri başladı, meydanlar yaşlılara və uşaqlara qalardı. İşini bitirən bura gələrdi, dərdləşib söhbətləşərdi. Yaşlılar meydana nəzarət edərdilər. Əmək qabiliyyəti olan kişilər ora çox gəldikdə ağsaqqallar onları məzəmmətləyər və deyərdilər: "Sənin işin-gücün yoxdur, nə avaralanırsan? Get işinin dalınca". Maraqlıdır ki, eyni münasibət məktəbli uşaqlara da aid idi. Yaşlılar onlardan da soruşardılar: "Sən dərslərini oxumusan?". Bəzən uşaqları sual-cavaba tutardılar. Ümumiyyətlə, ailələr də bu məsələlərə xüsusi diqqət yetirərdilər. Bir qayda olaraq, oyunlar uşaqların boş vaxtlarında keçirilərdi. Keçmişdə meydanlar hamıya, daha çox yaşlılara, hətta ailəli cavan oğlanlara aid idi. Meydanlarda "Qalaşənki", "Cızığasalma", "Şökidü", hər bölgədə müxtəlif adlarla bilinən aşıq oyunları xüsusi yer tuturdu. Min illərdi ki, oynanırdı bu oyunlar. Qədim yaşayış məskənlərindən aşkar edilmiş çoxlu aşıq nümunələri bu oyunun İlk Tunc dövründən, bəlkə, ondan əvvəl də bəlli olduğunu göstərir. Aşıq oyunları mövqetutma, strateji, taktiki müdafiə, hücum kimi davam edərdi. "Kitabi-Dədə Qorqud"da Buğac meydanda aşıq oynayarkən buğanı öldürüb Buğac adını alır. O təkcə Buğac adını almır. Bir anda aşıq oynamaqdan bəyliyə keçir, hakimiyyət qazanır. Oğuz bəyləri el ağsaqqalı Dədə Qorqudu çağırırlar ki, gəlib ona yeni görəv, status versin, "sənin aşıq oynaman bitmişdir, ərlik, ərənlik, bəylik, igidlik məqamın başlamışdır" desin.

*Hey Dirsə Xan! Oğlana bəylik vergil,*
*Təxt vergil – ərdəmlidir!*
*Boynu uzun bədəvi at vergil,*
*Binər olsun, hünərlidir!*
*Ağ ayıldan tümən qoyun vergil, –*
*Bu oğlana şişlik olsun, ərdəmlidir!*
*Qaytabandan qızıl dəvə vergil bu oğlana,*
*Yüklət olsun, hünərlidir!*
*Altun başlu ban ev vergil bu oğlana,*
*Kölgə olsun, ərdəmlidir!*
*Çigin quşlu cübbə ton vergil bu oğlana,*
*Geyər olsun, hünərlidir!*

Beləcə, yeni hakimiyyət, idarə üsulu yarandı, bir bəy də taxt sahibi oldu. Könlüm istər ki, bu kiçik bədii hissədə olan mənaya bir az yer ayırım. Allahım! Bu millət nə qədər zəngindir. Cəmisi bir neçə sətirdən ibarət olan nümunədə nələr yoxdur?! Bəylik vermək, idarə sisteminə malik olmaq, bir statusdan digərinə keçmək, sərbəst məşğuliyyət sahələri – maldarlıq (qoyunçuluq) yaratmaq, bədəvi ata, ticarətin, yükdaşımanın inkişafı üçün dəvəyə malik olmaq, yeni el, oba qurmaq, idarəçilik üçün saray, nəhayət, türkün hakimiyyət rəmzi, tamğası olan quşlu cübbə vermək. Oğuz igidlərinin özlərinə məxsus qiyafələri, atları var idi. Bəylər geyimləri, qiyafələri, atları ilə tanınardılar. Hər şey meydanda həll olardı. Bu meydan min illər mövcud olmuşdu, aşıq da həmin aşıq idi. Onlar da oynadı, biz də, ustad Şəhriyar da:

*Bu damlarda çoxlu cızıq atmışam,*
*Uşaqların aşıqların udmuşam,*
*Qurğuşunlu saqa alıb satmışam.*

Ustadın evin üstündə aşıq oynadığı bəlli olur. Naxçıvanda da evlərin üstü dam adlanır. Aran bölgələrində qışda qar az olduğundan uşaqlar məhəllə meydanlarını təmizləyib orada oynayardılar. Dağ kəndlərində isə evlərin üstü, damı təmizlənər və orada oynayardılar. Bu, təbii-coğrafi şəraitlə də əlaqəli idi. Dağ kəndlərində ənənəvi evlər, köməkçi tikililər dağ yamaclarında salınmaqla arxası yer səthi, yəni dağın, təpənin yamacı ilə eyni səviyyədə olurdu. Bir çox halda bir evin damı digər evin həyəti idi. Ona görə də uşaqlar evlərin üstündə oynayardılar.

Meydanda çox oyunlar oynanılıb: "Cızığasalma", "Atlardan kimin atı", "Mola haray", "Mozu-mozu", "Hostana", "İpsürütləmə", "Əzəli başdan gərək", "Qayışagirmə", "Dirədöymə", "Ciqərəqatma".

Oyunlar uşaqların fiziki gücü, mənəvi dünyası idi. Onlar cinsə və yaşa görə fərqlənərdi. Hər şey evdən, təndir başından, kürsüdən başlayardı. Burada oynanardı "İynə-iynə", "Əlimi siçan dişlədi", "Siçan-pişik", "Atambabam güney bacı", "Ya bundadır, ya bunda", "Yaşıl muncuq kimdədir?", "Gizlənqaç" ("Gizlənparç"). Nə qədər incə, kövrək düşüncə tələb edən, evlərdə, həyətlərdə oynayıb tədricən meydana getmək hüququ qazandıran oyunlar olub. Bu oyunların hər birinin öz aləti vardı. Hamısı da ətrafda, yerli idi: daş, ağac, sümük, ip və sair. Kimsə düzəltməzdi bunları. Ancaq uşaqlar özləri edərdilər. Hər kəs çalışardı ki, onun aləti daha yaxşı olsun. Nə qədər lopik daş axtarardıq. Harada görsəydik, həmin daşları evə gətirərdik ki, onlarla "Lopik-daş", "Çiqərəqatma", "Pozma", "Yeddidaş" oynayaq. Meydana qaldırmaq üçün daş gətirilirdi. Uzağa daş atır, daşı dizə, qurşağa, sinəyə və baş üstünə qaldırırdıq. Hər məhəllədə böyük dibək daşları vardı. Daşdan idi məhəllə çeşmələrinin hovuzları, başı bəzəkli, çarhovuzlu, novlu kəhrizləri, çeşmələri, meydanlar onların yanında idi. Çox oyunları ağacla oynayardıq. Az qala hər oğlan uşağının çilingi, ələyatan ağacı (tubuluğu) var idi. Ağacla daha çox iki oyun oynanardı: "Çilik-ağac", "İllə-illə". "Çilik-ağac" bütün Azərbaycan üçün xarakterik olmuşdur:

*Bu xırmanda "aradanxır" oynardıq,*
*Comalaşıb qarışqatək qaynardıq,*
*Yavaş-yavaş bağçalara ağnardıq,*
*Ağaclardan çilik-ağac kəsərdik,*
*Qoruqçunun qorxusundan əsərdik.*

Topla oynanılan oyunlar da var idi: "topagirmə" və sair. O dövrdə indiki kimi ala-bəzək, müxtəlif formalı toplar yox idi. Boynumuzu çiynimizə qoyub analarımıza, nənələrimizə, bizdən böyük, tikiş tikmək bacaran bacılarımıza yalvarar, arxalarınca dolaşardıq ki, bizə bərk parçadan, palaz-paltar qırıqlarından "top" tiksinlər. Vay onda idi ki, uşaqlardan kiminsə rezin topu olaydı. Artıq top oyununun təyinedicisi o idi. Hər şey bir yana, bir də baxırdın ki, o uduzanda, məğlub olanda topu götürürdü ki, topum cırılır. Yenidən özümüzün parçadan düzəldilmiş, böyüklü-kiçikli "toplarımıza" ümid qalırdı. Bunlar içərisində ən yaxşısı keçədən düzəldilən idi.

Oyunlar daha çox hərəkətli olmaqla uşaqların fiziki inkişafında əsas rol oynayırdılar. Lakin oyunların müxtəlif saymacalarla başlaması, bir sıra oyunlarda fiziki hərəkətin şifahi nitqə uyğunlaşdırılması uşaqların zehninin və nitqinin inkişafına ciddi təsir göstərirdi. Bu oyunlardan "Ocaq yandı, su qaynadı", "Ana, məni qurda vermə", "İllə-illə", "Əzəli başdan gərək", "Lağ-lağ", "Atlardan kimin atı" oyunlarını misal göstərə bilərik.

İlk ağac minmədən başlanardı meydanlarda at yarışı, mərd yarışı, qılıncqurşama, oxatma, Vətəni, eli qoruma. At çapan özünü Koroğluya, Babəkə, Cavanşirə, hər hansı nağıl qəhrəmanına bənzədirdi. "Atının" adı da milli idi: Qırat, Alapaça və sair.

*(Ardı var)*

**Hacı Qadir QƏDİRZADƏ**
***AMEA-nın müxbir üzvü***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1037 | 62,2 | 62,5 | 100,5 |
| 2. | Şahbuz rayonu | 482 | 28,9 | 29,0 | 100,3 |
| 3. | Culfa rayonu | 1055 | 63,3 | 63,5 | 100,3 |
| 4. | Kəngərli rayonu | 684 | 41,0 | 41,1 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 2833 | 170,0 | 170,0 | 100,0 |
| 6. | Babək rayonu | 1500 | 90,0 | 90,0 | 100,0 |
| 7. | Sədərək rayonu | 350 | 21,0 | 21,0 | 100,0 |
| 8. | Şərur rayonu | 1953 | 117,2 | 112,2 | 95,7 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15482 | 929,0 | 926,7 | 99,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25376** | **1522,6** | **1516,0** | **99,6** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 376 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 522 min 600 manat olmuş, cəmi 1 milyon 516 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,6 faizini təşkil edir.

## Şərurda yoldaşlıq görüşü

***Şərur rayonunda 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Şərur və Sədərək rayon komandaları arasında boks üzrə yoldaşlıq görüşü keçirilib.***

Rayon Gənclər və İdman idarələrinin birgə təşkil etdiyi görüşdə 13 çəki dərəcəsində 50-dən çox dəri əlcək sahibi qüvvəsini sınayıb.

Görüşdən öncə çıxış edən Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov muxtar respublikada idmana və idmançılara göstərilən qayğıdan danışıb və hər iki komandanın boksçularına uğurlar arzulayıb.

Sonra çıxış edən Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev bildirib ki, belə görüşləri keçirməkdə əsas məqsəd istedadlı boksçuları üzə çıxarmaq və onları Naxçıvan yığmasına cəlb etməkdir.

Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə şərurlu boksçular sədərəkli həmkarlarını 8:5 hesabı ilə məğlub etməyi bacarıblar. Sonda idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

## Yüngül atletika üzrə birincilik keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yüngül Atletika Federasiyası və Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə şəhər ümumtəhsil məktəblərinin komandaları arasında yüngül atletika üzrə şəhər birinciliyi keçirilib. 100, 200, 400, 800, 1500 metr məsafələr üzrə keçirilən yarışda qızlar və oğlanlar birincilik uğrunda mübarizə aparıblar. Yekun nəticəyə əsasən, 9 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Digər iki pillədə isə 16 və 3 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Sonda təşkilatçılar tərəfindən qalib komandaların idmançılarına diplomlar və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**


### Culfa Rayon Təhsil Şöbəsi

*2015-ci il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 5 mart 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 10 mart 2015-ci il tarixdə saat 15[00]-də Culfa Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Quliyev Həzi Umud oğlu***
***Telefon: 546-02-80***
***Ünvan: Culfa Rayon Təhsil Şöbəsi***

### İtmişdir

Nəbiyev Cavid Kərim oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 198